Azərbaycan Respublikası Prezidentinin 2018-ci il
27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün

# DÖVLƏT PROQRAMI

## 1. Ümumi müddəalar

"Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019 – 2023-cü illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyi səviyyəsinin artırılması vasitəsilə yol-nəqliyyat hadisələrinin sayının və bu hadisələr nəticəsində ölkəyə dəyən sosial-iqtisadi zərərin azaldılması istiqamətində tədbirləri özündə ehtiva edir. Dövlət Proqramı Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquqi aktların və Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarının tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

## 2. Yol hərəkətinin təhlükəsizliyi sahəsində mövcud vəziyyət

Ümummilli lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş və hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində yol hərəkəti təhlükəsizliyinin artırılması və yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində aşağıda qeyd olunan bir sıra mühüm tədbirlər görülmüşdür:

— yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid əlaqələndirmə fəaliyyəti təkmilləşdirilmiş, nəqliyyat və yol hərəkəti sahəsində qanunvericilik bazası əhəmiyyətli dərəcədə yenilənmiş, "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2012-ci il dekabrın 26-da Sərəncam imzalanmış, mühüm institusional quruculuq işləri aparılmış, nəqliyyat əməliyyatlarının sistemli idarə edilməsi məqsədilə Bakıda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yaradılmışdır;
— yol hərəkəti mədəniyyətinin artırılması üçün əhali arasında maarifləndirmə və təbliğat-təşviqat işləri genişləndirilmiş, yol-nəqliyyat hadisələrinin nəticələrinin aradan qaldırılması üzrə xilasetmə və ilk tibbi yardım fəaliyyəti təkmilləşdirilmişdir;
— yol infrastrukturunun təkmilləşdirilməsi, təhlükəsiz yollar və yol hərəkətinin səmərəli təşkili sahəsində əhəmiyyətli dövlət investisiya qoyuluşları həyata keçirilmiş, 2012 – 2017-ci illərdə Azərbaycan Respublikasında 4273,8 km avtomobil yolu yenidən qurulmuş və təmir edilmiş, ümumi istifadədə olan avtomobil yollarında 182 körpü, 48 yeraltı və yerüstü piyada keçidi, 21 yol qovşağı və avtomobil tuneli inşa edilmiş, yol hərəkətinin təşkili sxemləri təkmilləşdirilmiş, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə müasir texniki vasitələr tətbiq edilmiş və digər bu kimi mühüm tədbirlər həyata keçirilmişdir ki, bütün bunların da nəticəsində yol-nəqliyyat hadisələrinin dinamikasında müvafiq azalma müşahidə edilmişdir.

Bununla belə, Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyi səviyyəsinin artırılması, yol-nəqliyyat hadisələrinin sayının və onlar nəticəsində vurulan zərərin həcminin azaldılması, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadəyə keçidin təmin olunması üçün vahid proqram əsasında genişmiqyaslı, intensiv, sistemli və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin müəyyən edilməsi üçün həlledici amillərdən biri baş vermiş yol-nəqliyyat hadisələri və onlar nəticəsində dəyən zərərin təhlilidir. Belə ki, yol-nəqliyyat hadisələri yalnız ayrı-ayrılıqda fərdlərə deyil, bütövlükdə cəmiyyətə maddi və mənəvi zərər vurulmasına, əmək qabiliyyətinin itirilməsi nəticəsində insanların əmək prosesindən uzaqlaşmasına gətirib çıxarır və nəticədə ölkə iqtisadiyyatına ciddi ziyan dəyir.

Ümumdünya Səhiyyə Təşkilatının (bundan sonra – ÜST) məlumatlarına əsasən, hər il yol-nəqliyyat hadisələri nəticəsində dünyada təqribən 1 milyon 250 min insan həyatını itirir. Bu, orta hesabla hər 30 saniyədə bir insan ölümü deməkdir. 15–29 yaşlı insanların ölüm səbəbləri arasında yol-nəqliyyat hadisələri birinci yeri tutur. Yol-nəqliyyat hadisələri dünya iqtisadiyyatına ildə orta hesabla 500 milyard ABŞ dolları məbləğində zərər vurur.

2013–2017-ci illər ərzində Azərbaycanda 11600 yol-nəqliyyat hadisəsi qeydə alınmışdır. Bu hadisələrin nəticəsində ölənlərin sayı 4691 nəfər, sağlamlığına ağır və ya az ağır zərər dəymiş şəxslərin sayı isə 11611 nəfər olmuş, o cümlədən yetkinlik yaşına çatmayan 399 nəfər həyatını itirmiş, 1219 nəfərin isə sağlamlığına ağır və ya az ağır zərər vurulmuşdur. Son beş ildə qeydə alınmış yol-nəqliyyat hadisələrinin 40,0 faizini piyadaların iştirakı ilə baş verən hadisələr təşkil etmişdir. Ümumilikdə 2013–2017-ci illərdə yol-nəqliyyat hadisələri nəticəsində ölən və sağlamlığına ağır və ya az ağır zərər vurulmuş şəxslərin sayı 16302 nəfər olmuşdur.

2013–2017-ci illər ərzində Azərbaycan Respublikasında yol-nəqliyyat hadisələrində ölənlərin 68,6 faizini, sağlamlığına ağır və ya az ağır zərər vurulmuş şəxslərin isə 68,7 faizini əhalinin 25–64 yaş arasında olan hissəsi təşkil edir ki, bu da bilavasitə aktiv əmək yaşında olan insanlar deməkdir. Sağlamlığına ağır və ya az ağır zərər vurulmuş şəxslərin 16,4 faizini, ölənlərin isə 12,3 faizini 18–24 yaş arasında olan şəxslər təşkil etmişdir.

Qeyd edilən dövrdə yol-nəqliyyat hadisələri nəticəsində əmək qabiliyyətli şəxslərin həyatını itirməsi və ya onların sağlamlığına zərər vurulması, habelə bu səbəbdən normal əmək fəaliyyəti rejiminin pozulması, infrastruktura və nəqliyyat vasitələrinə zərər dəyməsi, həmin zərərin aradan qaldırılmasına xərc çəkilməsi və digər amillər nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyan Birləşmiş Millətlər Təşkilatının (bundan sonra – BMT) və ÜST-ün tərtib etdikləri “Yol hərəkəti təhlükəsizliyinin qlobal vəziyyəti barədə hesabat”a əsasən, ümumi daxili məhsulun (bundan sonra – ÜDM) 3–5 faizi həcmində qiymətləndirilir.

Yol-nəqliyyat hadisələri ilə yanaşı, nəqliyyat vasitələrinin istismarı nəticəsində insanların həyat və sağlamlığına təhlükə törədən səbəblərdən biri də onların ətraf mühitə zərərli təsiridir. Azərbaycan Respublikasında avtomobil nəqliyyatından atmosferə atılan çirkləndirici maddələrin həcmi son illərdə xeyli artmışdır.

Yol hərəkəti təhlükəsizliyinin səviyyəsi “insan – nəqliyyat vasitəsi – yol” sisteminin optimallığından asılıdır. Azərbaycan Respublikasında baş vermiş yol-nəqliyyat hadisələrinin böyük hissəsi yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını sürücülərin pozması ilə bağlıdır. Bu hal sürücü hazırlığı prosesinin təkmilləşdirilməsini zəruri edir.

Yol hərəkəti təhlükəsizliyinin səviyyəsinə təsir edən digər amil isə nəqliyyat vasitələrinin sayı və texniki vəziyyətidir. Belə ki, 2012–2017-ci illər ərzində Azərbaycan Respublikasında demoqrafik artım və əhalinin rifahının yaxşılaşması nəticəsində mexaniki nəqliyyat vasitələrinin sayı 25,6 faiz artaraq 2017-ci ilin sonuna 1359919 ədədə çatmış, ümumilikdə isə, son 10 ildə mexaniki nəqliyyat vasitələrinin sayı 67,5 faiz artmışdır. Ölkədə köhnəlmiş və texniki təhlükəsizlik göstəriciləri aşağı olan nəqliyyat vasitələrindən istifadə halları da çoxdur. Bu isə təhlükəsizlik göstəriciləri aşağı olan nəqliyyat vasitələrindən istifadənin məhdudlaşdırılması, yüksək təhlükəsizlik standartlarına cavab verən nəqliyyat vasitələrindən istifadəyə keçid üçün zəruri tədbirlər görülməsini şərtləndirir.

Yol infrastrukturu da yol hərəkəti təhlükəsizliyinin əsas amillərindən biridir. Hərəkətin səmərəli təşkil edilməməsi insanların yola sərf etdiyi vaxtın artmasına, ətraf mühitin çirklənməsinə, qəza riskinin yüksəlməsinə səbəb olur. Buna görə də hərəkət şəraitinin yaxşılaşdırılması üçün küçə-yol şəbəkəsi inkişaf etdirilməli, hərəkətin təşkili və idarə edilməsi sahəsində müasir sistemlər və üsullar tətbiq olunmalıdır.

Həyata keçirilən daşımaların nəqliyyat növləri arasında diversifikasiyasının zəif

olması, daşımaların çox hissəsinin avtomobil nəqliyyatının payına düşməsi də yol hərəkətinin təhlükəsizliyinə təsir edir. Belə ki, 2017-ci ildə ölkə üzrə sərnişindaşımaların 88,2 faizi, yükdaşımaların isə 63,9 faizi avtomobil nəqliyyatı vasitəsilə yerinə yetirilmişdir. Bu da yol-nəqliyyat hadisələrinin sayının, ətraf mühitə zərərli təsirin artmasına gətirib çıxarmışdır.

Yol hərəkəti insan həyatı üçün təhlükə mənbəyi olmamalıdır. Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, hər bir insanın təhlükəsiz yaşamaq hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, sağlamlığın qorunması hüququ vardır. Təhlükəsiz yol hərəkəti bu hüquqların təminatlarından biridir. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi dövlətimizin qarşısında duran əhəmiyyətli sosial-iqtisadi və demoqrafik vəzifələrdəndir.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi mürəkkəb sistemdir. Bu sistemin bir tərəfini onun hüquqi, sosial və iqtisadi çərçivəsini müəyyən edənlər, digərini isə həmin çərçivədə fəaliyyət göstərən yol hərəkətinin iştirakçıları təşkil edir. Sistem təminatçıları və iştirakçıları arasında qarşılıqlı əlaqə və birgə fəaliyyət olduğu kimi, məsuliyyət bölgüsü də olmalıdır. Bu cür məsuliyyət bölgüsü bir çox ölkələrdə qəbul edilmiş “təhlükəsiz yol hərəkəti sistemi” yanaşmasının təməlini təşkil edir: həmin sistemin əsasında insan ölümü və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayının minimuma endirilməsi prinsipi durur.

BMT-nin “Yol hərəkəti təhlükəsizliyi sahəsində 2011–2020-ci illər üzrə fəaliyyət Onilliyinin Qlobal Planı”nda yol hərəkətinin təhlükəsizliyi sahəsində milli strategiyanın qəbul edilməsi zəruri hesab edilir və Azərbaycan Respublikası bu sahədə beynəlxalq səyləri tam dəstəkləyir.

Son illərdə Azərbaycan Respublikasının avtomobil yollarında nəqliyyat axınının ümumi sıxlığının və adambaşına düşən nəqliyyat vasitələrinin sayının davamlı olaraq artması müşahidə edilir. Bu da yol hərəkəti təhlükəsizliyinə münasibətin dəyişməsi, yol hərəkəti və nəqliyyatdan istifadə mədəniyyətinin yüksəldilməsi üçün tədbirlər görülməsini, əlverişli, təhlükəsiz və davamlı yol hərəkətinin təşkilinə sistemli yanaşmanı labüd edir.

## 3. Dövlət Proqramının məqsədləri

3.1. Dövlət Proqramının əsas məqsədi yol-nəqliyyat hadisələrinin, xüsusilə də ölümlə və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görməkdir.

3.2. Azərbaycan Respublikasında “təhlükəsiz yol hərəkəti sistemi”ni yaratmaq üçün Dövlət Proqramında aşağıdakı məqsədlər nəzərdə tutulmuşdur:

3.2.1. yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmənin təkmilləşdirilməsi;

3.2.2. yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün səmərəli maliyyə sisteminin yaradılması;

3.2.3. yol hərəkətinin təhlükəsizliyi sahəsində müasir innovativ metodların tətbiq edilməsi;

3.2.4. yol-nəqliyyat şəbəkəsində yol hərəkətinin bütün iştirakçılarının səmərəli, təhlükəsiz və rahat hərəkətini təmin edən müvafiq mobillik strategiyasının hazırlanması;

3.2.5. yol-nəqliyyat sisteminin təminatçılarının və yol hərəkəti iştirakçılarının hüquq və vəzifələrinin, onların məsuliyyət hədlərinin dəqiq müəyyən edilməsi;

3.2.6. qəza təhlükəsi zamanı və qəzadansonrakı xilasetmə, təcili və təxirəsalınmaz tibbi yardım fəaliyyətinin əlaqələndirilməsi və təkmilləşdirilməsi;

3.2.7. yol hərəkətinin təhlükəsizliyi sahəsində ictimai iştirakçılığın təmin edilməsi;

3.2.8. yol hərəkətinin təhlükəsizliyi sahəsində maarifləndirmə, təbliğat və təşviqat işinin təkmilləşdirilməsi;

3.2.9. yol hərəkəti və nəqliyyatdan istifadə mədəniyyətinin artırılması.

## 4. Dövlət Proqramının əsas istiqamətləri

4.0. Dövlət Proqramında aşağıdakı istiqamətlər üzrə tədbirlər nəzərdə tutulmuşdur:

4.0.1. **yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmə** – yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının imzalamadığı və ya ratifikasiya etmədiyi beynəlxalq müqavilələrə qoşulması, qoşulduğu beynəlxalq müqavilələrin səmərəli həyata keçirilməsinin təmin edilməsi və zəruri tədbirlər görülməsi, mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, yol hərəkəti təhlükəsizliyinin idarə edilməsinin səmərəli maliyyələşdirilməsi, yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid dövlət siyasətini formalaşdıran və onun həyata keçirilməsini təmin edən, nəzarət və əlaqələndirmə funksiyasını icra edən daimi əsaslarla fəaliyyətin təşkil edilməsi, bu sahədə səmərəli mərkəzi və yerli idarəetmə mexanizmlərinin formalaşdırılmasının təşviqi, şəffaflığın və qanunçuluğun gücləndirilməsi və vətəndaşlarla münasibətdə etik davranış qaydalarına riayət olunmasının təmin edilməsi, yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmə sistemi üzrə milli texniki reqlamentlərin qəbul edilməsi və tətbiqi, dəqiq statistik və digər məlumatların toplanılması, analitik təhlili və bunların əsasında preventiv tədbirlərin həyata keçirilməsi, görülmüş işlərin səmərəliliyinin monitorinqi;

4.0.2. **təhlükəsiz yollar və yol hərəkətinin təşkili** – yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin və yol şəbəkəsinin qorunmasının təmin edilməsi məqsədilə avtomobil yollarının layihələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı təşkilatlararası əlaqələndirmə, yolların istismarına nəzarət və təhlükəsizlik dərəcəsinin qiymətləndirilməsi, yol hərəkətinin təşkili işinin, sərnişindaşıma və yükdaşıma fəaliyyətinin təkmilləşdirilməsi, piyadaların, velosipedçilərin və yol hərəkətinin digər müdafiəsiz iştirakçılarının hərəkət təhlükəsizliyinin təmin edilməsi;

4.0.3. **təhlükəsiz nəqliyyat vasitələri** – nəqliyyat vasitələri üçün müasir texniki reqlamentlərin hazırlanması və tətbiqi, nəqliyyat vasitələrinə texniki xidmətin keyfiyyətinin artırılması, onların texniki vəziyyətinə nəzarətin və texniki baxış qaydalarının təkmilləşdirilməsi, yeni texnologiyalardan istifadənin sürətləndirilməsi məqsədilə müasir təhlükəsizlik vasitələrindən və texnologiyalarından geniş istifadənin təşviqi, köhnəlmiş və texniki təhlükəsizlik səviyyəsi aşağı olan nəqliyyat vasitələrinin dövriyyədən çıxarılması;

4.0.4. **təhlükəsiz yol hərəkəti iştirakçıları** – yol hərəkəti iştirakçılarının təhlükəsiz davranışının təmin edilməsi, təhlükəsizlik vasitələrindən istifadə ilə bağlı davamlı təbliğat, təşviqat və maarifləndirmə işi aparılması, uşaqların yollarda qorunması, sürücülərin hazırlanması və ixtisasının artırılması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində ictimai iştirakçılığın təşkili;

4.0.5. **qəzasonrası tədbirlər** – yol-nəqliyyat hadisələri ilə bağlı xilasetmə, təcili və təxirəsalınmaz tibbi yardım tədbirlərini həyata keçirən aidiyyəti qurumlar arasında əlaqələndirmənin gücləndirilməsi, vahid çağrı mərkəzinin yaradılması, yol-nəqliyyat hadisələrinin qeydiyyatı sisteminin və ilk tibbi yardım göstərilməsi işinin təkmilləşdirilməsi, yol-nəqliyyat hadisələrinin müntəzəm baş verdiyi yerlərin – qəza ocaqlarının müəyyən edilməsi və qəzaların səbəblərinin aradan qaldırılması işinin təkmilləşdirilməsi.

## 5. Dövlət Proqramının maliyyələşdirilməsi

5.1. Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin icrasına tələb olunan xərclərin maliyyələşdirilməsi müvafiq illər üzrə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində müvafiq icraçı təşkilatlar üçün nəzərdə tutulmuş vəsait və qanunla qadağan olunmayan digər vəsait hesabına həyata keçirilir.

5.2. Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı tədbirlərin sistemliliyini, davamlılığını və dayanıqlılığını təmin etmək üçün dövlət büdcəsindən davamlı maliyyələşdirmənin olması zəruridir.

### 6. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

6.0. Dövlət Proqramında müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində 2013–2017-ci illərlə müqayisədə 2023-cü ilin sonunadək aşağıdakı hədəflərə çatmaq nəzərdə tutulur:

6.0.1. yol-nəqliyyat hadisələrində ölüm sayının 30 faiz azaldılması;

6.0.2. yol-nəqliyyat hadisələrində sağlamlığına ağır və ya az ağır zərər vurulan şəxslərin sayının 30 faiz azaldılması;

6.0.3. yol-nəqliyyat hadisələrinin ümumi sayının 30 faiz azaldılması;

6.0.4. yol-nəqliyyat hadisələrində uşaq ölümü hallarının 50 faiz azaldılması.

### 7. Dövlət Proqramının həyata keçirilməsi üzrə

### TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|
| | | | | |
| **7.1. YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ İDARƏETMƏ** | | | | |
| **7.1.1. Yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid dövlət siyasətini formalaşdıran və həyata keçirilməsini təmin edən daimi fəaliyyətin təşkili** | | | | |
| 7.1.1.1. | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və onun həyata keçirilməsinin təmin edilməsi, nəzarət və əlaqələndirmə funksiyasının icra edilməsi ilə bağlı daimi əsaslarla fəaliyyətin təşkili | Nazirlər Kabineti | | 2019-2020 |
| **7.1.2. Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı vahid elektron analitik məlumat bazasının yaradılması** | | | | |
| 7.1.2.1. | Yol hərəkətinin təhlükəsizliyi sahəsində fəaliyyəti elektronlaşdırmaqla aşağıdakı informasiya sistemlərindən və bazalarından ibarət “Yol hərəkətinin təhlükəsizliyi” vahid elektron analitik məlumat bazasının yaradılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | | 2019-2021 |
| 7.1.2.1.1. | “Avtomobil yollarının dövlət reyestri” elektron məlumat bazasının yaradılması | | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019-2021 |
| 7.1.2.1.2. | Azərbaycan Respublikasında Qlobal Mövqetəyinetmə Sistemi (GPS) ilə | | Əmlak Məsələləri Dövlət | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| | uzlaşdırılmış avtomobil yolları şəbəkəsinin interaktiv elektron xəritəsinin yaradılması | | Komitəsi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | |
| 7.1.2.1.3. | Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin "Yol hərəkətinin təhlükəsizliyi" vahid elektron analitik məlumat bazasına uyğunlaşdırılması | | Bakı Nəqliyyat Agentliyi | 2019-2020 |
| 7.1.2.1.4. | Mövcud işıqforların, yol nişanlarının, nişanlama xətlərinin, yol hərəkətinin təşkili ilə əlaqədar digər texniki vasitələrin və dəmir yolu keçidlərinin yerləşdirilməsi xəritəsinin yaradılması | | Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, "Azərbaycan Dəmir Yolları" QSC, Dövlət Turizm Agentliyi | 2019-2020 |
| 7.1.2.1.5. | Qəza təhlükəli yol sahələrinin və qəza ocaqlarının interaktiv xəritəsinin yaradılması | | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "Azərbaycan Dəmir Yolları" QSC | 2019-2020 |
| 7.1.2.1.6. | Azərbaycan Respublikasında qeydiyyata alınmış və ya ölkəyə idxal edilmiş, eləcə də müvəqqəti daxil olan nəqliyyat vasitələri, habelə onların mülkiyyətçiləri və istifadəçiləri haqqında statistik məlumat bazasının yaradılması | | Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2019-2020 |
| 7.1.2.1.7. | Azərbaycan Respublikasında və ya xaricdə (Azərbaycan Respublikasında istifadə edildikdə) sürücülük vəsiqəsi verilmiş şəxslər haqqında statistik məlumat bazasının yaradılması | | Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2019-2020 |
| 7.1.2.1.8. | "Yol-nəqliyyat hadisələri" elektron məlumat bazasının yaradılması | | Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi | 2019-2020 |
| 7.1.2.1.9. | Azərbaycan Respublikasında nəqliyyat vasitələrinin hərəkəti müvəqqəti məhdudlaşdırılmış yolların əvəzinə təklif edilən alternativ avtomobil yolları haqqında elektron məlumat bazasının yaradılması | | Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| 7.1.2.1.10. | “Avtomobil yollarının layihələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı təşkilatlararası əlaqələndirmə” elektron portalının yaradılması | | Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Azərişıq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB | 2019-2020 |
| 7.1.2.1.11. | Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı digər zəruri məlumatların vahid analitik məlumat bazasına daxil edilməsi | | Daxili İşlər Nazirliyi | 2019-2021 |
| 7.1.2.2. | “Yol hərəkətinin təhlükəsizliyi” vahid elektron analitik məlumat bazasının təşkili və fəaliyyəti qaydalarının, o cümlədən bazada olan məlumatlara müvafiq dövlət orqanlarının və onların səlahiyyətli şəxslərinin buraxılış dərəcəsini müəyyən edən əsasnamə layihəsinin hazırlanması | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019 |

| | | | | |
|---|---|---|---|---|
| 7.1.2.3. | “Yol hərəkətinin təhlükəsizliyi” vahid elektron analitik məlumat bazasına daxil olan müvafiq informasiya sistemləri və bazalarının bu Dövlət Proqramında nəzərdə tutulmuş qaydada və müddətlərdə yaradılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | | 2019-2022 |
| 7.1.2.4. | “Yol hərəkətinin təhlükəsizliyi” vahid elektron analitik məlumat bazası yaradılanadək mövcud olan informasiya sistemləri və bazaları arasında məlumat mübadiləsinin təşkili | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | |
| **7.1.3. Yol-nəqliyyat hadisələrinin səbəblərinin, şəraitinin və nəticələrinin araşdırılması işinin təkmilləşdirilməsi** | | | | |
| 7.1.3.1. | Yol-nəqliyyat hadisələrinin səbəblərinin, şəraitinin və nəticələrinin aradan qaldırılması üçün tədbirlər görülməsi, ümumiləşdirmələr aparılması və müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi | 2019-2020 |
| 7.1.3.2. | Yol-nəqliyyat hadisələrinin səbəblərinin, şəraitinin və nəticələrinin araşdırılması üzrə vahid metodiki vəsaitin hazırlanması | Daxili İşlər Nazirliyi | Ədliyyə Nazirliyi | 2019-2020 |
| **7.1.4. Yol-nəqliyyat hadisələri nəticəsində dəyən zərərin müəyyənləşdirilməsi qaydalarının hazırlanması və təsdiqi** | | | | |
| 7.1.4.1. | Yol-nəqliyyat hadisələri nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması qaydalarının hazırlanması | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Azərbaycan Dəmir Yolları” QSC | 2019 |

| | | | | |
|---|---|---|---|---|
| **7.1.5. Yol hərəkətinin təhlükəsizliyinə dair idarəetmə sistemi üzrə milli texniki reqlamentlərin müəyyənləşdirilməsi və tətbiqi** | | | | |
| 7.1.5.1. | Qabaqcıl beynəlxalq təcrübə və standartlar nəzərə alınmaqla, yol hərəkəti təhlükəsizliyi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsi və buna müvafiq tədbirlərin sistemli şəkildə idarə edilməsi üçün “Yol hərəkətinin təhlükəsizliyinə dair idarəetmə sistemi üzrə dövlət texniki reqlamentləri”nin hazırlanması və dövlət qeydiyyatına alınması | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019 |
| **7.1.6. Yol hərəkətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | |
| 7.1.6.1. | “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının yeni qanun layihəsinin, habelə yol hərəkətinin təhlükəsizliyi sahəsində qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | 2019 |
| 7.1.6.2. | Yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrasının təmin edilməsi və bu sahədə Azərbaycan Respublikası üçün zəruri hesab edilə biləcək digər beynəlxalq müqavilələrə tərəfdar çıxmanın mümkünlüyü barədə təkliflərin hazırlanması | Xarici İşlər Nazirliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Xarici İşlər Nazirliyi | 2019-2022 |
| **7.1.7. Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı elmi tədqiqat mərkəzinin yaradılması** | | | | |
| 7.1.7.1. | Yol hərəkətinin təhlükəsizliyinə dair nəzəri-təcrübi məsələlərin sistemli və davamlı şəkildə araşdırılması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müvafiq ali təhsil müəssisəsinin nəzdində, tərkibində yol hərəkətinin təşkili və yol hərəkətinin təhlükəsizliyi üzrə ekspertlər və elmi tədqiqat qurumlarının | Təhsil Nazirliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| | nümayəndələrindən ibarət ictimai şuranın fəaliyyət göstərəcəyi müvafiq elmi tədqiqat mərkəzinin yaradılması | | | |
| 7.1.7.2. | Yol hərəkətinin təhlükəsizliyi üzrə müvafiq elmi tədqiqat mərkəzinin nəzdində yol hərəkətinin təhlükəsizliyi ilə bağlı innovativ təkliflərdən ibarət ideya bankının yaradılması | | | 2020-2021 |
| **7.1.8. Yol hərəkətinin təşkili və yol hərəkətinin təhlükəsizliyi sahəsində mütəxəssis hazırlığı prosesinin optimallaşdırılması** | | | | |
| 7.1.8.1. | Yol hərəkətinin təşkili və yol hərəkətinin təhlükəsizliyi sahəsində mütəxəssis hazırlığı məqsədilə maddi-texniki və elmi-metodiki bazaya əsaslanan tədris və təlim prosesinin, peşə hazırlığının təşkili və bu sahədə müvafiq təhsil pillələri üzrə ixtisaslaşmanın təkmilləşdirilməsi | Təhsil Nazirliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2021 |
| 7.1.8.2. | Yol hərəkətinin təhlükəsizliyi sahəsində fəaliyyəti həyata keçirən əməkdaşların xidmətə qəbul edilməzdən əvvəl və xidmət dövründə vətəndaşlarla etik davranış qaydaları barədə kurslara cəlb edilməsi, etik davranış qaydalarını pozan əməkdaşlar barədə ciddi məsuliyyət tədbirlərinin görülməsi | Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Təhsil Nazirliyi | mütəmadi |

| | | | | |
|---|---|---|---|---|
| **7.1.9. Yol hərəkəti təhlükəsizliyi ilə bağlı ictimai iştirakçılığın təmin edilməsi** | | | | |
| 7.1.9.1. | Müvafiq dövlət və yerli özünüidarəetmə orqanlarının yol hərəkətinin təhlükəsizliyinə dair qərarlarının qəbulu və bu sahə ilə bağlı digər fəaliyyətinə ictimai nəzarətin təşkili məqsədilə vətəndaşların, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin, həmkarlar ittifaqlarının və digər vətəndaş cəmiyyəti institutlarının iştirakçılığının formaları barədə təkliflər hazırlanması və həmin təkliflər əsasında ictimai iştirakçılığın təşkili | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, Həmkarlar İttifaqları Konfederasiyası, "Azərbaycan Dəmir Yolları" QSC, Dövlət Turizm Agentliyi, Azərbaycan Avtomobil Federasiyası | 2019-2023 |
| **7.1.10. Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin fəaliyyətinin təkmilləşdirilməsi və genişləndirilməsi** | | | | |
| 7.1.10.1. | Mövcud beynəlxalq təcrübəyə uyğun olaraq, Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin təkmilləşdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019-2023 |
| 7.1.10.2. | Bakı şəhərinin inzibati ərazisində Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin imkanlarından daha səmərəli istifadənin təmin edilməsi, onun əhatə dairəsinin tədricən respublikanın əsas avtomobil yolları üzrə genişləndirilməsi | Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi | 2019-2023 |

| | | | | |
|---|---|---|---|---|
| 7.1.10.3. | Bakı şəhərində və ölkənin digər iri şəhərlərində yol hərəkətinin təşkili, nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətinin təmin edilməsi ilə əlaqədar işlərin koordinasiyası məqsədilə təkliflər hazırlanması | Nazirlər Kabineti | Bakı Nəqliyyat Agentliyi, Daxili İşlər Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2019-2023 |
| **7.1.11. Şəhərsalma və tikinti sahəsində fəaliyyətin yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğunluğunun təmin edilməsi** | | | | |
| 7.1.11.1. | Tikinti obyektlərinin layihələndirilməsi, tikintisi, yenidən qurulması və digər şəhərsalma və tikinti fəaliyyətinin planlaşdırıldığı ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluğu meyarlarını və tələblərini tənzimləyən normativ hüquqi və normativ xarakterli aktların yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğun olaraq təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, “Azərbaycan Dəmir Yolları” QSC | 2019-2020 |
| 7.1.11.2. | Ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluğu meyarları və tələblərinin şəhərsalma və tikinti fəaliyyətini tənzimləyən normativ hüquqi və normativ xarakterli aktlara daxil edilməsi | | | 2019-2020 |
| **7.1.12. Daşımaların nəqliyyat növləri üzrə bölüşdürülməsi və müxtəlif nəqliyyat növlərinin qarşılıqlı əlaqəsinin təmin edilməsi** | | | | |
| 7.1.12.1. | Azərbaycan Respublikasında avtomobil yollarının istismar müddətinin artırılması və yüklənmə dərəcəsinin azaldılması, daşımaların təhlükəsizliyinin və keyfiyyətinin, ümumilikdə yol hərəkəti təhlükəsizliyinin artırılması və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, turizmin inkişafı məqsədilə ölkədə həyata keçirilən sərnişin və yük daşımalarının nəqliyyat növləri (avtomobil, dəmir yolu, hava və | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, “Bakı Metropoliteni” QSC, “Azərbaycan Dəmir Yolları” QSC, “Azərbaycan Hava Yolları” QSC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC | 2019-2022 |

| | | | | |
|---|---|---|---|---|
| | su nəqliyyatı) arasında optimal bölüşdürülməsi və müxtəlif nəqliyyat növlərinin qarşılıqlı əlaqəsinin təmin edilməsi üçün tədbirlər planının, eləcə də Azərbaycan Respublikasının vahid nəqliyyat strategiyasının hazırlanması | | | |
| 7.1.12.2. | Mövcud ictimai nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, habelə şəhərdaxili ictimai nəqliyyat növlərinin sayının artırılması, tramvay, kabotaj sərnişin və yük gəmiçiliyinin təşkili imkanlarının və iqtisadi səmərəliliyinin araşdırılması, bu sahədə təkliflər hazırlanması | | | 2019-2022 |
| **7.1.13. Yol hərəkətinin təhlükəsizliyi sahəsində tədbirlərin davamlı maliyyələşdirilməsi** | | | | |
| 7.1.13.1. | Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə məsul olan müvafiq dövlət qurumlarının xərclərində yol hərəkəti təhlükəsizliyi üzrə xərclərin ayrıca istiqamət kimi göstərilməsi | Nazirlər Kabineti | Maliyyə Nazirliyi | 2019-2022 |
| **7.2. TƏHLÜKƏSİZ YOLLAR VƏ YOL HƏRƏKƏTİNİN TƏŞKİLİ** | | | | |
| **7.2.1. Avtomobil yollarının layihələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı onların yol hərəkəti təhlükəsizliyi tələblərinə uyğunluğunun təmin edilməsi və müvafiq təşkilatlar arasında əlaqələndirmənin təşkili** | | | | |
| 7.2.1.1. | Avtomobil yollarının layihələndirilməsi, tikintisi, təmiri və istismarı zamanı onların yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğunluğunun yoxlanılması qaydalarının təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019 |
| 7.2.1.2. | Avtomobil yollarının təhlükəsizlik səviyyəsinin mütəmadi olaraq yüksəldilməsi məqsədilə yolların təhlükəsizliyinin qiymətləndirilməsi meyarlarının müəyyən edilməsi və bu meyarlar əsasında yolların təsnifatının aparılması | | Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Dövlət Turizm Agentliyi | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.1.3. | Mövcud avtomobil yolları şəbəkəsinin yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğunluğunu müstəqil beynəlxalq qurumun qiymətləndirməsi və müvafiq təkliflər verilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | | 2019 |
| 7.2.1.4. | Avtomobil yollarının layihələndirilməsi, tikintisi və təmiri zamanı onların yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğunluğunun yoxlanılmasının təşkili və layihələndirilən avtomobil yollarının bütün hərəkət iştirakçıları üçün rahat və təhlükəsiz olmasının təmin edilməsi | Nazirlər Kabineti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2023 |
| 7.2.1.5. | İstismarda olan avtomobil yollarının yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğunluğunun mütəmadi yoxlanılmasının təmin edilməsi və aşkarlanmış uyğunsuzluqların aradan qaldırılması | Nazirlər Kabineti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2023 |
| 7.2.1.6. | Avtomobil yollarının, habelə avtomobil yollarının bilavasitə altında və ya yolların kənarı boyu yerləşən mühəndis-kommunikasiya təminatı sistemlərinin layihələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı təşkilatlararası əlaqələndirmə qaydalarının təkmilləşdirilməsi, bu əlaqələndirmənin operativ qaydada həyata keçirilməsi üçün “Avtomobil yollarının layihələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı təşkilatlararası əlaqələndirmə” vahid elektron portalının yaradılması | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Azərişıq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB | 2019-2020 |
| 7.2.1.7. | Avtomobil yollarının layihələndirilməsi, tikintisi, əsaslı təmiri və yenidən qurulması zamanı əlaqələndirmənin təşkili məqsədilə müvafiq təşkilatlar tərəfindən beşillik fəaliyyət planlarının hazırlanması və yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid nəzarətedici | Nazirlər Kabineti | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Azərişıq” ASC, “Azərsu” ASC, | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| | quruma təqdim edilməsi, təqdim edilən iş planları əsasında avtomobil yollarının layihələndirilməsi, tikintisi, əsaslı təmiri və yenidən qurulmasına dair vahid fəaliyyət planının hazırlanması və təsdiq edilməsi | | “Azəriqaz” İB | |
| 7.2.1.8. | Avtomobil yollarının layihələndirilməsi, tikintisi, əsaslı təmiri və yenidən qurulmasının yalnız vahid fəaliyyət planı əsasında həyata keçirilməsinin təmin edilməsi | Nazirlər Kabineti | | 2020-2023 |
| **7.2.2. Avtomobil yollarında icazə verilən sürət həddinin optimallaşdırılması** | | | | |
| 7.2.2.1. | Yaşayış məntəqələri daxilində nəqliyyat vasitələrinin sürət həddinin küçə-yol şəbəkəsinin xüsusiyyətlərinə uyğun optimallaşdırılması, digər avtomobil yollarında nəqliyyat vasitələri üçün sürət həddi normalarına yenidən baxılma | Daxili İşlər Nazirliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2021 |
| 7.2.2.2. | Təhlükəli yol sahələrində sürət həddi meyarlarının qanunvericilikdə təsbit edilməsi, avtomobil yollarının kateqoriyasını və təhlükəsizlik səviyyəsini nəzərə almaqla sürət həddinin optimallaşdırılması | | | |
| 7.2.2.3. | Təhlükəli yol sahələrində müəyyən edilmiş sürət həddini aşmaları barədə sürücülərin xəbərdar edilməsi məqsədilə xüsusi elektron məlumat tablolarının yerləşdirilməsi | | | |
| 7.2.2.4. | Sürət həddinə nəzarət edən xüsusi texniki vasitələrin səmərəliliyinin təhlilini aparmaqla, onların yollarda dislokasiyasının və sayının optimallaşdırılması, həmin vasitələrin sürət həddini aşmanın daha təhlükəli olduğu yol sahələrində quraşdırılması | | | |

| | | | | |
|---|---|---|---|---|
| **7.2.3. Piyadaların təhlükəsiz hərəkətinin  təşkili və tənzimlənməsi** | | | | |
| **7.2.3.1. Yolların piyadalar üçün təhlükəsizlik dərəcəsinin təhlilini aparmaqla, piyadaların hərəkət təhlükəsizliyinin artırılmasına dair aşağıdakı təkliflərin hazırlanması** | | | | |
| 7.2.3.1.1. | Müasir tələblər nəzərə alınmaqla piyada işıqforlarının tətbiqi meyarlarının dəqiqləşdirilməsi və onların sayının artırılması | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019-2020 |
| 7.2.3.1.2. | Davamlı monitorinqlər aparmaqla qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq yaşayış məntəqələrinin küçə-yol şəbəkəsində eynisəviyyəli piyada keçidlərinin sayının artırılması | | | |
| 7.2.3.1.3. | Respublika əhəmiyyətli avtomobil yollarının yaşayış məntəqələrindən keçən hissələrinin yeraltı və yerüstü piyada keçidləri ilə təmin edilməsi səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə qısa müddətdə bu sahədə görülmüş işlərin, qabaqcıl beynəlxalq standartlar nəzərə alınmaqla, tam yoxlanılması və nəticəsi barədə hesabat hazırlanması, hesabat əsasında həmin yolların yeraltı və yerüstü piyada keçidləri ilə təmin edilməsinə dair Tədbirlər Planının hazırlanması və təsdiq edilməsi, Tədbirlər Planına müvafiq olaraq zəruri işlər görülməsinin təmin edilməsi və minimal sərmayə qoyuluşu ilə başa gələn yeraltı və yerüstü piyada keçidlərinin sayının artırılması, eynisəviyyəli piyada keçidlərinin siqnallaşdırılması səviyyəsinin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, “Azərişiq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB | 2019-2020 |
| 7.2.3.1.4. | Əlilliyi olan şəxslərin yollarda sərbəst hərəkətinin təmin edilməsi üçün tədbirlər (piyada keçidlərinin ayaqla hiss edilə biləcək qabarıq elementlərlə, işıqforların | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Azərbaycan | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| | səs siqnalı ilə təchiz edilməsi və s.) görülməsi, layihələndirilməsi, tikintisi və təmiri nəzərdə tutulan avtomobil yollarının əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması | | Avtomobil Yolları Dövlət Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | |
| 7.2.3.1.5. | Səkilərdə piyadaların hərəkəti üçün maneələrin aradan qaldırılması və gələcəkdə belə maneələr yaradılması hallarının qarşısının alınması, səkilərin ölçülərinin dövlət şəhərsalma norma və qaydalarına uyğunluğunun təmin edilməsi | | | 2019-2020 |
| 7.2.3.1.6. | Avtomobil yollarında yolayrıcılarının təhlükəsizlik səviyyəsinin yüksəldilməsi və yolların xüsusiyyəti imkan verdiyi hallarda hərəkətin maneəsiz təşkili üzrə müvafiq təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi | Daxili İşlər Nazirliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2023 |
| **7.2.4. İşıqforların, yol nişanlarının, nişanlama xətlərinin və yol hərəkəti təşkilinin digər texniki vasitələrinin tətbiqi və idarə edilməsi prosesinin təkmilləşdirilməsi** | | | | |
| 7.2.4.1. | İşıqforların, yol nişanlarının, nişanlama xətlərinin və yol hərəkəti təşkilinin digər texniki vasitələrinin texniki göstəriciləri və tətbiqi qaydaları ilə bağlı texniki reqlamentlərin hazırlanması və dövlət qeydiyyatına alınması | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2021 |
| 7.2.4.2. | İşıqforların, yol nişanlarının, nişanlama xətlərinin və yol hərəkəti təşkilinin digər texniki vasitələrinin reyestrinin aparılması, yerləşdirilməsi xəritəsinin hazırlanması və rüblük hesabatlar əsasında (mütəmadi yenilənməsi nəzərə alınmaqla) yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid nəzarətedici quruma müvafiq məlumatların verilməsi | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019-2021 |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.4.3. | Yol hərəkətinin təşkili sahəsində istifadə edilən ölçmə vasitələrinin dövlət qeydiyyatına alınması və akkreditə olunmuş laboratoriyalarda dövri yoxlamalardan keçirilməsi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | mütəmadi |
| 7.2.4.4. | Qəbul olunmuş texniki reqlamentlər əsasında avtomobil yollarında və yaşayış məntəqələrinin küçə-yol şəbəkəsində (xüsusilə də yolların hərəkət hissəsinin üstündə) müvafiq yol nişanlarının yerləşdirilməsinin və nişanlama xətlərinin çəkilməsinin təmin edilməsi | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | mütəmadi |
| **7.2.5. Təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol hərəkətinin təşkili** | | | | |
| 7.2.5.1. | İri yaşayış məntəqələrindəki təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə avtomobil yollarında hərəkət sıxlığını azaltmaq məqsədilə küçə-yol şəbəkəsinin xüsusiyyətləri və digər təhlükəsizlik meyarları nəzərə alınmaqla yol hərəkətinin təşkilinə dair təkliflər hazırlanması | Daxili İşlər Nazirliyi | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2020 |
| 7.2.5.2. | Təhsil müəssisələrinin bilavasitə yaxınlığında yerləşən küçə-yol şəbəkəsində müvafiq sürət məhdudiyyətinin müəyyən edilməsi və yol hərəkəti təşkilinin texniki vasitələrinin tətbiqinə xüsusi diqqət yetirilməsi | | | |
| **7.2.6. Avtomobil yollarının buraxma qabiliyyətinin yüksəldilməsi və hərəkət sıxlığının azaldılması ilə bağlı tədbirlər görülməsi** | | | | |
| 7.2.6.1. | Avtomobil yollarında hərəkət sıxlığının və tıxacların yaranması səbəblərinin müəyyən edilməsi, təhlillər aparılması və tıxacların qarşısının alınması üçün müvafiq təkliflər hazırlanması və tədbirlər görülməsi | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, yerli | 2019-2022 |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.6.2. | Avtomobil yollarının buraxma qabiliyyətini artırmaq məqsədilə araşdırmalar aparılması və müvafiq təkliflər verilməsi | | icra hakimiyyəti orqanları | |
| 7.2.6.3. | Hərəkət sıxlığı yüksək olan yol sahələrinin (yolların) yükünün azaldılması məqsədilə nəqliyyat axınlarının şəhərlərin mərkəzi hissələrindən kənarlara yönləndirilməsi üçün sistemli tədbirlər planının hazırlanması və icrası | | | |
| 7.2.6.4. | Küçə-yol şəbəkəsində nəqliyyat vasitələrinin izafi yürüşlərinin azaldılması və hərəkətin optimallaşdırılması məqsədilə birtərəfli və ikitərəfli hərəkətin təşkilinin təkmilləşdirilməsi | | | |
| 7.2.6.5. | “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş reversiv hərəkətlə nizamlanma tətbiq edilən hərəkət zolaqlarının yaradılması mümkün olan yol sahələrinin (yolların) müəyyənləşdirilməsi və müvafiq yerlərdə reversiv hərəkətin təşkili | | | |
| **7.2.7. Avtomobil yollarının süni işıqlandırma sistemləri, işıqqaytarıcı yol nişanları ilə və digər texniki vasitələrlə təchiz edilməsi** | | | | |
| 7.2.7.1. | Sutkanın qaranlıq vaxtı və məhdudiyyətli görünmə şəraitində yol nişanlarının, nişanlama xətlərinin və digər texniki vasitələrin aydın görünməsi və qavranılması məqsədilə onların işıqlandırılan və ya işıqqaytarıcı olmasının təmin edilməsi | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Energetika Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Azərişıq” ASC, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr | 2019-2023 |
| 7.2.7.2. | Avtomobil yollarının süni işıqlandırma sistemləri ilə təchiz edilməsi meyarlarının, süni işıqlandırmaya ehtiyac olan yollarda və ya yol sahələrində həmin işıqlandırma sistemlərinin növbəlilik üzrə quraşdırılacağı | | | |

| | | | | |
|---|---|---|---|---|
| | yolların kateqoriyalarının müəyyən olunması | | | |
| 7.2.7.3. | Sutkanın qaranlıq vaxtı və məhdudiyyətli görünmə şəraitində avtomobil yollarının müasir standartlara cavab verən süni işıqlandırma sistemləri, qurğuları və vasitələri ilə, habelə yolların işıqlandırılmasında alternativ enerji mənbələrindən (günəş, külək və s. enerji batareyaları) istifadənin təmin edilməsi və onların daim yararlı vəziyyətdə saxlanılması üçün mütəmadi tədbirlər görülməsi | | | |
| **7.2.8. Texniki-iqtisadi əsaslandırılması aparılmış, yüksək təhlükəsizlik tələblərinə cavab verən avtomagistralların yaradılması** | | | | |
| 7.2.8.1. | Ölkənin demoqrafik, iqtisadi inkişaf perspektivləri ilə bağlı yeni avtomobil yollarının müəyyən edilməsi | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2019-2023 |
| 7.2.8.2. | Ölkə ərazisində nəqliyyat axınının intensiv olduğu istiqamətlər üzrə mühafizə olunan və yüksək təhlükəsizlik tələblərinə cavab verən avtomagistrallar yaradılmasının və onların istismar şərtlərinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması | | | |
| 7.2.8.3. | Texniki-iqtisadi cəhətdən əsaslandırılmış ödənişli avtomagistralların tikintisinin stimullaşdırılması üçün tədbirlər görülməsi | Nazirlər Kabineti | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, | |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.8.4. | Avtomagistralların tikintisi və istismarı ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi | | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ədliyyə Nazirliyi | |
| **7.2.9. Velosiped zolaqlarının və duracaqlarının yaradılması** | | | | |
| 7.2.9.1. | Avtomobil yollarında və küçə-yol şəbəkəsində velosiped zolaqlarının və duracaqlarının yaradıla biləcəyi ərazilərin müəyyən edilməsi, bununla bağlı müvafiq təkliflər hazırlanması və tədbirlər görülməsi | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |
| **7.2.10. Astagedən nəqliyyat vasitələrinin hərəkəti üçün şəraitin təkmilləşdirilməsi** | | | | |
| 7.2.10.1. | Kənd təsərrüfatı və texnoloji təyinatlı nəqliyyat vasitələri üçün onların hərəkətinə icazə verilməyən avtomobil yollarında mümkün olan yerlərdə paralel yolların (hərəkət zolaqlarının) yaradılması və ya digər müvafiq tədbirlər görülməsi | Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | yerli icra hakimiyyəti orqanları | 2019-2023 |
| 7.2.10.2. | Eyni istiqamətdə bir hərəkət zolağı olan yolların müvafiq sahələrində astagedən nəqliyyat vasitələrini ötüb keçmək üçün qısaməsafəli əlavə hərəkət zolaqlarının təşkili | | | |
| **7.2.11. Avtomobil yollarında mal-qara keçidlərinin sayının optimallaşdırılması** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.11.1. | Monitorinqlər aparmaqla respublika əhəmiyyətli avtomobil yollarında və avtomagistrallarda avtomobil yollarının örüş-otlaq sahələrindən və heyvandarlıq təsərrüfatlarının geniş yayıldığı ərazilərdən keçən hissələrində təhlükəsizlik qaydalarına uyğun mal-qara keçidlərinin sayının optimallaşdırılması | Daxili İşlər Nazirliyi | Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019-2022 |
| **7.2.12. Avtomobil yollarının lahiyələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı ətraf mühitin və biomüxtəlifliyin qorunması tələblərinin yerinə yetirilməsi, o cümlədən vəhşi fauna növlərinin areallarının bölünmə dərəcəsinin azaldılması üçün avtomagistrallarda zəruri miqrasiya keçidlərinin planlaşdırılması** | | | | |
| 7.2.12.1. | Avtomobil yollarının layihələndirilməsi, tikintisi, təmiri və yenidən qurulması zamanı ətraf mühitin və biomüxtəlifliyin qorunması məqsədilə yol hərəkəti təhlükəsizliyi tələblərinə uyğun lahiyələndirilən avtomobil yollarının fauna növləri üçün təhlükəsizliyinin təmin edilməsi | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |
| 7.2.12.2. | Xüsusi mühafizə olunan təbiət ərazilərinə yaxın layihələndirilən avtomagistrallarda nadir və nəsli kəsilməkdə olan vəhşi fauna növlərinin populyasiyaları arasında təbii əlaqənin saxlanılmasının təmin edilməsi | | | |
| **7.2.13. Nəqliyyat vasitələrinin dayanma, durma və parklanma qaydalarının təkmilləşdirilməsi və bu qaydaların tələblərinə əməl edilməsinə nəzarətin gücləndirilməsi** | | | | |
| 7.2.13.1. | Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkilinin mühüm tərkib hissəsi kimi, nəqliyyat vasitələrinin dayanma, durma və parklanma qaydalarının təkmilləşdirilməsi | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.13.2. | Dayanma, durma və parklanmanın mümkünlüyü baxımından küçə-yol şəbəkəsinin təhlil edilməsi, nəqliyyat vasitələrinin parklanma yerlərinin sayının və mövcud parklanma yerlərindən istifadənin optimallaşdırılması | Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində — Bakı Nəqliyyat Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |
| 7.2.13.3. | Yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotasının müəyyənləşdirilməsi, kvotaya uyğun olmayan obyektlərin tikintisinin və yenidən qurulmasının qadağan edilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |
| 7.2.13.4. | Yeraltı və yerüstü çoxmərtəbəli parklanma yerlərinin tikintisi barədə təkliflər verilməsi və onların tikintisinə sahibkarların cəlb edilməsi | | | |
| **7.2.14. Sərnişinlərin və yüklərin avtonəqliyyat vasitələri ilə daşınmasına və yük avtonəqliyyat vasitələrinin hərəkətinə dair qaydaların təkmilləşdirilməsi** | | | | |
| 7.2.14.1. | Sərnişinlərin, baqajın və yüklərin (o cümlədən təhlükəli yüklərin) avtonəqliyyat vasitələri ilə daşınmasını tənzimləyən normativ hüquqi aktların və onların tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi | 2019-2020 |
| **7.2.15. İctimai nəqliyyatın hərəkətinin təkmilləşdirilməsi** | | | | |
| 7.2.15.1. | İri şəhərlərin zərurət olan küçə və prospektlərində ümumi istifadədə olan nəqliyyat vasitələri üçün xüsusi hərəkət zolaqlarının yaradılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |

| | | | | |
|---|---|---|---|---|
| 7.2.15.2. | Bakı şəhərində və Bakıətrafı şəhər, qəsəbə və kəndlərdə ekspress avtobus xətlərinin artırılması | Bakı Nəqliyyat Agentliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2019-2023 |
| 7.2.15.3. | Avtobus dayanacaq məntəqələrinin ümumi nəqliyyat axınına maneə törətməməsi və sərnişin axınına uyğun olması şərtilə yerləşdirilməsi, avtobus marşrutlarının, xüsusən də iri şəhərlərdə müntəzəm şəhərdaxili marşrutların sərnişin axınına və yol infrastrukturuna uyğun optimallaşdırılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2019-2023 |
| **7.3. TƏHLÜKƏSİZ NƏQLİYYAT VASİTƏLƏRİ** | | | | |
| **7.3.1. Nəqliyyat vasitələri üçün texniki reqlamentlərin təkmilləşdirilməsi** | | | | |
| 7.3.1.1. | Nəqliyyat vasitələrinə, onların ehtiyat hissələrinə, ləvazimat və istismar materiallarına dair Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə uyğun texniki təhlükəsizlik və ekoloji reqlamentlərin hazırlanması | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2019 |
| 7.3.1.2. | Nəqliyyat vasitələrinə, onların ehtiyat hissələrinə, ləvazimat və istismar materiallarına dair texniki təhlükəsizlik və ekoloji reqlamentlərin tətbiq edilməsi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2019-2022 |

| | | | | |
|---|---|---|---|---|
| 7.3.1.3. | Texniki reqlamenlərə cavab verməyən nəqliyyat vasitələrinin, onların ehtiyat hissələrinin, ləvazimat və istismar materiallarının Azərbaycan Respublikasına idxalının, satışının, istifadəsinin, habelə sair formada dövriyyəsinin qarşısının alınması üçün zəruri tədbirlər görülməsi | Dövlət Gömrük Komitəsi (idxalı hissəsində), Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (istehsalı hissəsində) | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2019-2022 |
| **7.3.2. Təhlükəsizlik xüsusiyyətləri yüksək olan nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması** | | | | |
| 7.3.2.1. | Aktiv, passiv, ekoloji və qəzasonrası təhlükəsizliyi yüksək olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına idxalının, ölkə ərazisində alqı-satqısının, habelə sair formada dövriyyəsinin stimullaşdırılması üçün tədbirlər görülməsi və müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi | Nazirlər Kabineti | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ədliyyə Nazirliyi | 2019-2020 |
| **7.3.3. Ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması** | | | | |
| 7.3.3.1. | Nəqliyyat vasitələrində istifadə olunan yanacaq növlərinin keyfiyyətinin Avro-4, habelə daha yüksək olan Avro-5, Avro-6 və digər standartların tələblərinə uyğunlaşdırılması üçün müvafiq əsasların yaradılması və bu prosesin mərhələli şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi | Energetika Nazirliyi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Neft Şirkəti | 2019-2023 |

| | | | | |
|---|---|---|---|---|
| 7.3.3.2. | Ekoloji cəhətdən təmiz, elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə bu növ nəqliyyat vasitələrinin istehsalı, idxalı, ixracı, dövriyyəsi və istismarı üçün güzəştlər və imtiyazlar müəyyən edilməklə müvafiq normativ hüquqi bazanın formalaşdırılması | Nazirlər Kabineti | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ədliyyə Nazirliyi | 2019-2021 |
| 7.3.3.3. | Ekoloji cəhətdən təmiz, elektrik mühərrikli nəqliyyat vasitələri üçün müvafiq infrastrukturun yaradılması istiqamətində tədbirlər görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi | 2019-2021 |
| **7.3.4. Avtonom (sürücüsüz) nəqliyyat vasitələrindən istifadə imkanlarının təhlil edilməsi** | | | | |
| 7.3.4.1. | Avtonom (sürücüsüz) nəqliyyat vasitələrindən şəhərdaxili sərnişindaşımada, habelə əyləncə-turizm məqsədilə istifadə üçün pilot ərazilərin təyin edilməsi və burada həmin nəqliyyat vasitələrinin hərəkətinin təşkili məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi və digər təşkilati-hüquqi məsələlərin həlli ilə bağlı təkliflər hazırlanması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 2019-2023 |
| **7.3.5. Klassik və yarış məqsədli idman avtomobillərinin idxalı və istifadəsi qaydalarının müəyyən edilməsi** | | | | |
| 7.3.5.1. | Klassik və yarış məqsədli idman avtomobillərinin idxalı, ixracı, dövriyyəsi və onlardan istifadə qaydalarını tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Azərbaycan Avtomobil Federasiyası | 2019-2020 |
| 7.3.5.2. | Klassik və yarış məqsədli idman avtomobillərinin sertifikatlaşdırılması və dövlət qeydiyyatı qaydalarının müəyyən edilməsi | | Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Federasiyası | |

| | | | | |
|---|---|---|---|---|
| **7.3.6. Nəqliyyat vasitələrinə texniki xidmətin (texniki qulluq və təmir) keyfiyyətinin artırılması** | | | | |
| 7.3.6.1. | Nəqliyyat vasitələrinə texniki xidmətlə (texniki qulluq və təmirlə), habelə texniki xidmət göstərən texniki-təmir stansiyaları və sahələri ilə bağlı qanunvericiliyin və texniki reqlamentlərin təkmilləşdirilməsi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi | 2019-2021 |
| 7.3.6.2. | Nəqliyyat vasitələrinə texniki xidmət göstərən fiziki şəxslərin peşə hazırlığı və ixtisasının artırılması məqsədilə tədbirlər görülməsi, habelə xüsusiləşdirilmiş təlim-tədris mərkəzlərinin yaradılması, kursların, seminarların və treninqlərin təşkili | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Federasiyası | |
| **7.3.7. Nəqliyyat vasitələrinin utilizasiyasının təşkili** | | | | |
| 7.3.7.1. | Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq, eləcə də yerli avtomobil istehsalını stimullaşdırmaq məqsədilə köhnəlmiş, texniki-təhlükəsizlik baxımından və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin dövriyyədən çıxarılmasını təmin etmək üçün nəqliyyat vasitələrinin utilizasiya proqramının hazırlanması və tətbiqi | Nazirlər Kabineti | İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| **7.3.8. İriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi** | | | | |
| 7.3.8.1. | İriqabaritli və ağırçəkili nəqliyyat vasitələri üçün icazə verilən maksimum kütləyə (oxa düşən kütləyə) dair tələblərin beynəlxalq standartlara uyğunlaşdırılması, bu tələblərə əməl edilməsinə nəzarət sisteminin təkmilləşdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019-2020 |

| | | | | |
|---|---|---|---|---|
| 7.3.8.2. | Hərəkət zamanı icazə verilən maksimum kütlə və qabarit tələblərinə əməl etməməklə iri qabaritli və ağırçəkili nəqliyyat vasitələrinin avtomobil yollarına vurduqları zərərin hesablanması qaydalarının müəyyən edilməsi, habelə həmin zərərin ödənilməsi və aradan qaldırılması məqsədilə tədbirlər görülməsi mexanizminin təkmilləşdirilməsi | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2019-2020 |
| 7.3.8.3. | İriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət rejiminə və marşrutlarına yenidən baxılması, bu sahədə müəyyən olunmuş məhdudiyyətlərə əməl edilməsinə nəzarətin gücləndirilməsi | | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | |
| **7.3.9. Nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarətin və onların texniki baxışı qaydalarının təkmilləşdirilməsi** | | | | |
| 7.3.9.1. | Nəqliyyat vasitələrinin texniki baxışının təkmilləşdirilməsi, texniki baxış keçirilməsinin xüsusi mülkiyyətdə olan hüquqi şəxslərə və fərdi sahibkarlara həvalə edilməsi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi | 2019-2021 |
| 7.3.9.2. | Hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən texniki baxışın həyata keçirilməsi qaydasının hazırlanması və bu sahədə qanunvericiliyin pozulmasına görə məsuliyyətin müəyyən edilməsi | | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi | |
| 7.3.9.3. | Yollarda hərəkətdə olan nəqliyyat vasitələrinin texniki nasazlığa görə hərəkətdən kənarlaşdırılmasına dair qanunvericiliyin təkmilləşdirilməsi | | | |
| 7.3.9.4. | Sərnişin və yük daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin reysqabağı texniki vəziyyətinin yoxlanılmasının, habelə həmin nəqliyyat vasitələri sürücülərinin reysqabağı tibbi və tibbi-narkoloji müayinədən | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi | |

| | | | | |
|---|---|---|---|---|
| | keçirilməsi qaydasının təkmilləşdirilməsi | | | |
| 7.3.9.5. | Texniki baxışı həyata keçirəcək mütəxəssislərin təlim və tədrisinin təşkili qaydalarının hazırlanması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi | |
| **7.4. TƏHLÜKƏSİZ YOL HƏRƏKƏTİ İŞTİRAKÇILARI** | | | | |
| **7.4.1. Yol hərəkətinin təhlükəsizliyi sahəsində təbliğat-təşviqat işinin təşkili** | | | | |
| 7.4.1.1. | Yol hərəkəti təhlükəsizliyinin sistemli və mütəmadi qaydada təbliğat-təşviqatının təşkili üçün müvafiq tədbirlər planının hazırlanması və bu sahədə ictimai iştirakçılığın təmin edilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, “Azərbaycan Dəmir Yolları” QSC, müvafiq icra hakimiyyəti orqanları, Azərbaycan Avtomobil Federasiyası | 2019-2023 |
| 7.4.1.2. | Yol hərəkəti təhlükəsizliyinin təbliği ilə bağlı televiziya və radio verilişlərinin, sosial şəbəkə materiallarının və digər sosial reklamların, habelə nəşrlərin hazırlanması və yayılması, kütləvi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | | | |
| 7.4.1.3. | Aktiv, passiv, ekoloji və qəzasonrası təhlükəsizliyi yüksək olan nəqliyyat vasitələrindən istifadənin təbliği və təşviqi;<br>şəxsi avtomobillərdən istifadənin azaldılması istiqamətində mütəmadi təbliğat-təşviqat işinin təşkili | | | |
| 7.4.1.4. | Velosipedçilərin, həmçinin motosiklet və mopedlərin sürücülərinin yol hərəkəti qaydaları və təhlükəsizlik vasitələrindən istifadə barədə maarifləndirilməsi, belə vasitələrdən istifadə ilə bağlı təbliğat-təşviqat işinin aparılması | Daxili İşlər Nazirliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Milli Televiziya və Radio Şurası, | |

| | | | | |
|---|---|---|---|---|
| 7.4.1.5. | Televiziya və radio verilişlərinin, audiovizual və kütləvi nümayiş etdirilən və ya digər şəkildə açıqlanması nəzərdə tutulan əsərlərin hazırlanması zamanı yol hərəkəti təhlükəsizliyinin təbliğinin nəzərə alınması | | Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Azərbaycan Dəmir Yolları" QSC, müvafiq icra hakimiyyəti orqanları, Azərbaycan Avtomobil Federasiyası | |
| 7.4.1.6. | Əhalinin ictimai nəqliyyata etimadının yüksəldilməsi, həmçinin ictimai nəqliyyat xidmətinin keyfiyyətinin, təhlükəsizliyinin və səmərəliliyinin artırılması üçün davamlı təbliğat-təşviqat işinin aparılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Azərbaycan Dəmir Yolları" QSC, müvafiq icra hakimiyyəti orqanları, Azərbaycan Avtomobil Federasiyası | |

| | | | | |
|---|---|---|---|---|
| **7.4.2. Avtomobil yollarında uşaqların təhlükəsizliyinin təmin edilməsi** | | | | |
| 7.4.2.1. | Yol hərəkəti iştirakçıları kimi uşaqların təhlükəsizliyinin təmin edilməsi məqsədilə yol hərəkətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2019-2020 |
| 7.4.2.2. | Uşaqların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün uşaq avtoşəhərciklərinin, avtomeydançalarının və digər əyləncə-təlim məkanlarının yaradılması və yerləşdirilməsi qaydasının hazırlanması, belə yerlərin ölkənin müxtəlif ərazilərində yaradılması işinin təşkili | Daxili İşlər Nazirliyi | Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | |
| **7.4.3. Ümumtəhsil və məktəbəqədər tədris müəssisələrində yol hərəkətinin təhlükəsizliyi ilə bağlı tədrisin gücləndirilməsi** | | | | |
| 7.4.3.1. | Müvafiq fənn proqramlarına və dərsliklərə daxil edilmiş mövzuların tərkibində yol hərəkəti təhlükəsizliyinə aid baza bilik və bacarıqların əks etdirilməsi və ya belə xüsusi mövzuların nəzərdə tutulması | Təhsil Nazirliyi | Daxili İşlər Nazirliyi | 2019-2023 |
| 7.4.3.2. | Yol hərəkətinin təhlükəsizliyi mövzusunda müxtəlif xarakterli müsabiqə və yarışlar keçirilməsi və dərnəklərin təşkili | | | |

| 7.4.4. Mexaniki nəqliyyat vasitələri sürücülərinin hazırlanması və ixtisasının artırılması işinin təkmilləşdirilməsi | | | | |
|---|---|---|---|---|
| 7.4.4.1. | Mexaniki nəqliyyat vasitələri sürücülərinin hazırlanmasını, ixtisasının artırılmasını, nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsini və onlara sürücülük vəsiqəsi verilməsini tənzimləyən qaydaların təkmilləşdirilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi | 2019-2023 |
| 7.4.4.2. | Mexaniki nəqliyyat vasitələri sürücülərinin hazırlanması və ixtisasının artırılması məqsədilə tədris müəssisələrinin ölkə üzrə dislokasiyasının optimallaşdırılması və maddi-texniki bazasının müasir standartlara uyğunlaşdırılması | | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | |
| 7.4.4.3. | Beynəlxalq təcrübə nəzərə alınmaqla mexaniki nəqliyyat vasitələri sürücülərinin hazırlanması və ixtisasının artırılması üçün təlim-tədris prosesinin təkmilləşdirilməsi | | | |
| 7.4.4.4. | Əlilliyi olan şəxslərin sürücülük vəsiqəsi alması qaydalarının hazırlanması və bununla bağlı təlim-tədris prosesinin təkmilləşdirilməsi | Daxili İşlər Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | |
| 7.4.4.5. | Nəqliyyat vasitələrinin idarə edilməsinə mane olan xəstəliklərin və fiziki məhdudiyyətlərin siyahısının təsdiq edilməsi | Səhiyyə Nazirliyi | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi | |

| | | | | |
|---|---|---|---|---|
| 7.4.4.6. | Operativ nəqliyyat vasitələri, avtobuslar, taksi minik avtomobilləri, yük avtomobilləri, kənd təsərrüfatı təyinatlı, texnoloji, iriqabaritli və ağırçəkili nəqliyyat vasitələri sürücülərinin hazırlanması və ixtisasının xüsusi proqramlar üzrə artırılması işinin təkmilləşdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | |
| **7.4.5. Mexaniki nəqliyyat vasitələri sürücülərinin tədrisi və ixtisasının artırılması üzrə tədris müəssisələrinin tədris-köməkçi heyətinin hazırlığı işinin təkmilləşdirilməsi** | | | | |
| 7.4.5.1. | Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla mexaniki nəqliyyat vasitələri sürücülərini hazırlayan tədris müəssisələrinin tədris-köməkçi heyətinin hazırlığı və ixtisasının artırılması işinin təkmilləşdirilməsi, tədris müəssisələrinin tədris-köməkçi heyətinin attestasiya qaydalarının hazırlanması | Daxili İşlər Nazirliyi | Təhsil Nazirliyi | 2019-2020 |
| **7.4.6. Hərəkət (mobillik) planlarının tərtib edilməsi** | | | | |
| 7.4.6.1. | Ölkənin hər bir şəhəri üçün küçə-yol şəbəkəsində yol hərəkətinin bütün iştirakçılarının səmərəli, təhlükəsiz və rahat hərəkətini təmin edən “Şəhərdaxili hərəkət (mobillik) planı”nın hazırlanması və təsdiq edilməsi | Nazirlər Kabineti | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2019-2020 |
| 7.4.6.2. | Balansında 10 və ya daha çox avtonəqliyyat vasitəsi olan, habelə 20 və ya daha çox (iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinə münasibətdə – 5 və ya daha çox) avtonəqliyyat vasitəsi üçün nəzərdə tutulmuş parklanma yeri olan dövlət orqanlarının, bələdiyyələrin, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyəti ilə məşğul fiziki şəxslərin faktiki fəaliyyət göstərdiyi yer üzrə “Şəhərdaxili hərəkət (mobillik) planı”na uyğun “Xüsusi hərəkət (mobillik) planı”nın hazırlanması | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları, Bakı Nəqliyyat Agentliyi | |

| | | | | |
|---|---|---|---|---|
| **7.5. QƏZASONRASI TƏDBİRLƏR** | | | | |
| **7.5.1. Yol-nəqliyyat hadisələri ilə bağlı xilasetmə tədbirlərini həyata keçirən aidiyyəti qurumlar arasında əməkdaşlıq və əlaqələndirmənin gücləndirilməsi** | | | | |
| 7.5.1.1. | Yol-nəqliyyat hadisələri ilə bağlı operativ, əlaqələndirilmiş və keyfiyyətli xilasetmə tədbirlərinin görülməsi məqsədilə “Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları”nın hazırlanması | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi | 2019 |
| 7.5.1.2. | Yol-nəqliyyat hadisəsi yerinə müvafiq qəza-xilasetmə bölmələrinin qısa müddətdə çatmasını və daha operativ əlaqələndirməni təmin etmək üçün birgə təlimlərin mütəmadi keçirilməsi | Daxili İşlər Nazirliyi | Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | |
| **7.5.2. Yol-nəqliyyat hadisələri ilə bağlı vahid çağrı mərkəzinin yaradılması və yol-nəqliyyat hadisələrinin qeydiyyatı prosesinin təkmilləşdirilməsi** | | | | |
| 7.5.2.1. | Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətini həyata keçirən qurumları əlaqələndirən vahid çağrı mərkəzinin yaradılması və bu mərkəzin fəaliyyət qaydasının müəyyənləşdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi | 2019-2020 |
| 7.5.2.2. | Vahid çağrı mərkəzinin məlumat bazasının yaradılması və mütəmadi yenilənməsi, habelə bu bazanın “Yol-nəqliyyat hadisələri” elektron məlumat bazası ilə inteqrasiyası | | Daxili İşlər Nazirliyi | |
| 7.5.2.3. | Yol-nəqliyyat hadisələrinə dair zəruri məlumatların sistemli toplanması məqsədilə müvafiq qurumların hər birinin məlumatları daxil etməli olduğu “Yol-nəqliyyat hadisələrinin vahid qeydiyyat vərəqəsi”nin formasının və doldurulma qaydasının hazırlanması və təsdiqi | Daxili İşlər Nazirliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi | |

| | | | | |
|---|---|---|---|---|
| **7.5.3. Yol-nəqliyyat hadisələri ilə bağlı ilk tibbi yardım göstərilməsi işinin təkmilləşdirilməsi** | | | | |
| 7.5.3.1. | Yol-nəqliyyat hadisəsi yerinə təcili və təxirəsalınmaz tibbi yardımın, eləcə də qəza-xilasetmə dəstəsinin çatması və zərərçəkənlərin tibb məntəqələrinə çatdırılması müddətinin azaldılması üçün tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi | Səhiyyə Nazirliyi | Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi | 2019-2023 |
| 7.5.3.2. | Təcili və təxirəsalınmaz tibbi yardım stansiyaları şəbəkəsinin və onlar arasındakı məsafənin optimallaşdırılması | | | |
| 7.5.3.3. | Yol hərəkəti iştirakçılarına, xüsusilə sürücülərə yol-nəqliyyat hadisələrində zərərçəkənlərlə rəftar edilməsi və ilk tibbi yardım göstərilməsi qaydalarının öyrədilməsi işinin təkmilləşdirilməsi | | | |
| 7.5.3.4 | Təcili tibbi yardım nəqliyyat vasitələrinin GPS naviqatorlarla təmin edilməsi | Səhiyyə Nazirliyi | | 2019-2020 |
| **7.5.4. Qəza təhlükəli sahələrin və yol-nəqliyyat hadisələrinin müntəzəm baş verdiyi yerlərin (qəza ocaqlarının) müəyyən edilməsi və qəza səbəblərinin aradan qaldırılması** | | | | |
| 7.5.4.1. | Qəza təhlükəli sahələrin və qəza ocaqlarının müəyyən edilməsi, onların siyahısının mütəmadi yenilənməsi və həmin yerlərdə yol hərəkətinin yenidən təşkili və ya digər mümkün üsullarla qəza şəraitinin aradan qaldırılması üçün tədbirlər görülməsi | Daxili İşlər Nazirliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, “Azərbaycan Dəmir Yolları” QSC | 2019-2020 |